**Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin**

**2025-ci il üzrə maliyyə fəaliyyəti haqqında hesabatının icmalı**

Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi dövlət büdcəsindən maliyyələşir. 2025-ci il üzrə dövlət büdcəsindən daxilolma 43,8 milyon manat təşkil edib. Bu vəsait Nazirliyin Aparatı üzrə saxlanma xərcləri, Nazirlik və tabeli qurumları tərəfindən həyata keçirilən dövlət proqramları və layihələrin icrası üçün nəzərdə tutulub. 14,7 milyon manat daxilolma isə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 18 yanvar tarixli 18 nömrəli qərarı ilə təsdiq edilmiş “Universal telekommunikasiya xidmətlərinin göstərilməsi üçün operatora, provayderə lazım olan vəsaitin ayrılması və bu məqsədlə sərf olunan vəsaitin geri qaytarılması (kompensasiya) Qaydaları”na əsasən formalaşır və “Telekommunikasiya haqqında” Azərbaycan Respublikası Qanununun 31.5-ci maddəsində nəzərdə tutulmuş xidmətlərin göstərilməsində istifadə edilir.